*Fikrət AXUNDOV*

# Şuşa xatirələri



Bu sətirlərin müəllifi əslən şuşalı, tanınmış müəllim, pedaqoq, şair və tarixçi Mirzə Xosrov Axundovun oğlu Fikrət Axundovdur. Özüm barədə qısa arayış vermək istərdim. 1951-ci il mart ayının 14-də Şuşada ziyalı ailəsində anadan olmuşam.

Qeyd etdiyim kimi, atam Mirzə Xosrov ömrünün 50 ilini gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuş, ibtidai sinif müəllimi işləmişdir. O, 1889-cu il iyun ayının 13-də Şuşada ziyalı ailəsində dünyaya gəlmişdir. Onun babası Molla Zeynalabdin Sağəri və atası Mirzə Əli Aşiq dövrünün tanınmış müəllimi, şairi və musiqişünası olmuşlar.



Atam Mirzə Xosrov Axundovu kiçik yaşımda itirmişəm və onun 1960-cı il may ayının 10-da qəflətən vəfat etməsi məni çox sarsıtdı. O mənim də ilk müəllimim olmuş, əlifbanı və hüsnxətt dərslərini evdə mükəmməl öyrətmişdir. Atamla bağlı olan ən qiymətli yadigar onun qucağında 1952-ci ildə 10-11 aylığımda çəkilmiş fotoşəkildir.

Atamla bağlı xatirələrim çox olmasa da, yaddaşımda həkk olunanları, eləcə də Şuşa ilə bağlı uşaqlıq xatirələrimi sizinlə bölüşmək istərdim:

Atam məktəbdə şagirdlərə qarşı ciddi olduğu kimi evdə də övladlarına qarşı tələbkar idi. O, mənə 1-3-cü sinifləri əhatə edən proqram üzrə evdə dərs keçmişdir. Bu səbəbdən atam 1960-cı ildə rəhmətə gedəndən sonra həmin ilin sentyabrında anam məni Şuşada keçmiş realnı məktəbinin binasında yerləşən 2 nömrəli internat məktəbinə oxumağa apardı.

Məktəbin direktoru Murad müəllim və digərləri məni imtahan edərək ibtidai sinif səviyyəsi proqramı üzrə sorğu-sual etməyə başladılar. Onlar gördülər ki, mən yalnız I sinif proqramı üzrə deyil, eyni zamanda 2-ci və 3-cü siniflərin də tədris proqramlarını ətraflı mənimsəmişəm. Bildilər ki, mən Xosrov müəllimin oğluyam və evdə həmin siniflər üzrə tədris proqramlarını atam tərəfindən tam öyrəndiyimi nəzərə alaraq məni birbaşa 2-ci sinfə qəbul etdilər.

1961-ci ilin may ayında internat məktəbin şagirdləri ilə çəkilmiş fotoda soldan oturanlardan birincisi mənəm.

Həmin internat məktəbdə bir il təhsil aldıqdan sonra 1961-ci ilin sentyabrından Şuşa şəhər 5 nömrəli 8 illik məktəbdə təhsilimi davam etdirməyə başladım. Həmin məktəbdə 3-7-ci sinfin I rübü də daxil olmaqla, yəni, 1965-ci ilin noyabr ayınadək təhsil almışam.



Atam Xosrov müəllim çox gözəl xəttə malik idi. Bu səbəbdən şagirdlərinə də səliqəli və gözəl xəttlə yazmağı öyrədərdi. Onun şagirdlərindən bir neçəsinin hüsnxətt dəftəri bu günədək mənim şəxsi arxivimdə saxlanılır və həmin dəftərlər bunun əyani sübutudur.

Xosrov müəllim şagirdləri səliqəli və gözəl xətlə yazmağı öyrətməklə yanaşı, onların geyiminə də ciddi fikir verirdi. Başıma gələn bir hadisəni danışmaq istərdim. O, mənə evdə dərs keçən zaman özüm də bilmədən küçədə oynayıb üst-başım kirli halda gəlib onun qarşısında oturdum. Həmin vaxt proqram üzrə rus şairi Samuil Marşakın "Pinti uşaq" şerini keçirdik. Atam mənə həmin şeri təkrar etdirdi və sonra isə soruşdu ki, həmin pinti uşağa misal kimi göstərə bilərsən. Mən bir müddət fikirləşməyə başladım. Sonra özü əlavə etdi ki, bir üst-başına bax, gör şerdəki uşağa oxşayırsanmı?

1956-cı ilin sonlarında atam Mirzə Xosrov Axundovun pedaqoji fəaliyyətinin 50 illik yubileyi ilə bağlı Şuşa rayon Mədəniyyət Evində təntənəli yığıncaq keçirilmişdi. Ona verilən hədiyyələri evə gətirib bizə göstərdi. (əsas hədiyyələr patefon, divar saatı və stolüstü yazı dəsti idi). Atam gecənin təmtaraqlı keçdiyini, keçmiş şagirdlərinin bir çoxunun iştirak etdiyini söylədi. Mən 6 yaşımda olsam da, ona verilən hədiyyələrlə bağlı suallar verirdim. Biz evdə atamıza "ağa" deyə müraciət edirdik. Patefon məni daha çox heyrətləndirmişdi. Belə ki, patefonun qarşı hissəsində yerləşən tutacağı saat əqrəbi istiqamətində fırlatmaqla içəridə olan yayı yığmaqla onun üzərinə qoyulmuş valın səsləndirilməsinə heyranlıqla qulaq asırdıq. Uşaq təxəyyülü ilə fikirləşirdik ki, kiçik bir çemodan qutuya insanlar necə yerləşir? Eləcə də divar saatının işlək olması üçün sistemli qurulması da biz uşaqları hədsiz maraqlandırırdı.

Şuşa əhalisi arasında böyük hörmət sahibi olan Xosrov müəllim tanışların və qohumların toy tədbirərində bir ağsaqqal kimi iştirak edərdi. Bəzi hallarda qız evinin xahişi ilə verdiyi cehiz siyahısının tutulmasında iştirak edərdi. Maraqlısı o idi ki, atam həmin siyahını 3 nüsxə yazaraq, onu həm oğlan evinin, həm də qız evinin adamları tərəfindən imzalatdırardı. Siyahının 1 nüsxəsini oğlan evinə, digərini qız evinə verər və 3-cü nüsxəsini isə özündə saxlayardı ki, gələcəkdə hər hansı problem yarandığı halda, məsələni sübutla həll etmək mümkün olsun. Siyahılardan bir neçəsini şəxsən görmüşdüm.

Atam səhhətində yaranmış problemlərlə əlaqədar həkimlərin məsləhəti ilə təbii tütündən (tənbəki) trubka çəkirdi. Həmin tütünü ildə bir neçə dəfə Ağdam bazarında olan satıcıdan alırdı. Tütünün iri yarpaqlarını evdə pambıq parçadan tikilmiş torbada otağın divarından asardı. Özü üçün lazım olan miqdarda götürüb xırdalayaraq kiçik cib torbasına yerləşdirərdi. Ona xeyli miqdarda trubka və siqar qabı bağışlamışdılar. Hətta hansı bir vəzifəli şagirdi ona siqar da hədiyyə etmişdi. Həmin əşyaları şəxsən görmüşdüm.

*(Ardı var)*